Xalq Bank

# BANKA TƏQDİM EDİLƏN SƏNƏDLƏRİN SİYAHISI

**1) Fərdi sahibkar və ya fiziki şəxs olan Borcalan/Zamin tərəfindən təqdim edilən sənədlər:**

1. Borcalanın Bank tərəfindən təsdiq edilmiş formada kredit sifarişi;
2. Şəxsiyyəti təsdiq edən sənəd (şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd);
3. Gəlirlər haqqında arayış:
   - fiziki şəxslər üçün: tutduğu vəzifə və faktiki gəlirləri haqqında iş yerindən arayış;
   - fərdi sahibkarlar üçün: dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti və vergi orqanının qeydi ilə son 2 rüb üzrə bəyannamə;
4. 18 yaşından 26 yaşınadək olan kişi vətəndaşlar üçün hərbi xidmətin keçməsinə, müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət verilməsinə və ya çağırışdan azad edilməsinə dair müvafiq sənəd.

**2) Hüquqi şəxs olan Borcalan/Zamin tərəfindən təqdim edilən sənədlər:**

1. Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnamə;
2. Hüquqi şəxsin nizamnaməsi;
3. Son 12 ay ərzində digər banklarda açılmış cari hesablarında olan pul vəsaitlərinin dövriyyəsi haqqında çıxarış (aylara bölünməklə);
4. Borcalana zaminliyin təqdim edilməsinə və hüquqi şəxsin nümayəndəsinə zaminlik müqaviləsinin bağlanması səlahiyyətlərinin verilməsinə dair qərarların qəbul edilməsi haqqında hüquqi şəxsin ali idarəetmə orqanının iclasının protokolu (həmin səlahiyyətlərin hüquqi şəxsin digər idarəetmə orqanına məxsus olduğu təsis sənədlərində (nizamnaməsində) nəzərdə tutulmadığı hallarda).

**3) Fiziki şəxs olan İpoteka qoyan tərəfindən təqdim edilən təminat üzrə sənədlər:**

1. Daşınmaz əmlaka mülkiyyət hüququnu təsdiq edən sənəd/ARDYP tərəfindən verilmiş avtonəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi;
2. İpoteka qoyanın yaşayış yeri (ipoteka qoyulan əmlakın yerləşdiyi ərazi) üzrə müvafiq dövlət orqanından (MİS-dən (Mənzil İstismar Sahəsi), yerli İcra nümayəndəliyindən və s.) ailə tərkibi (yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər) haqqında Arayış (Forma № 2);
3. Daşınmaz əmlakın ipoteka qoyulmasına İpoteka qoyanın ərinin/arvadının razılığı, həmçinin əmlakın digər birgə mülkiyyətçilərinin və yaşayış təyinatlı daşınmaz əmlakda qeydiyyatda olan şəxslərin razılığı / nəqliyyat vasitəsinin ipoteka qoyulmasına İpoteka qoyanın ərinin/arvadının razılığı;
4. Bankla zəruri müqavilələrin imzalanmasından sonra və Borcalana kreditin verilməsindən əvvəl :

   əmlakın Bankda ipotekada olması barədə Daşınmaz əmlakın Dövlət reyestrinə qeydin daxil edilməsinə görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd / ARDYP tərəfindən verilmiş nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi (avtonəqliyyat vasitəsinin Bankda ipotekada olmasına dair qeydlə).

**4) Hüquqi şəxs olan İpoteka qoyan tərəfindən təqdim edilən təminat üzrə sənədlər:**

1. Daşınmaz əmlaka mülkiyyət hüququnu təsdiq edən sənəd/ARDYP tərəfindən verilmiş avtonəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi;
2. Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnamə (İpoteka qoyan qismində Borcalanın çıxış etdiyi hallar istisna olmaqla);
3. Hüquqi şəxsin nizamnaməsi (İpoteka qoyan qismində Borcalanın çıxış etdiyi hallar istisna olmaqla);
4. Bankla zəruri müqavilələrin imzalanmasından sonra və Borcalana kreditin verilməsindən əvvəl :

əmlakın Bankda ipotekada olması barədə Daşınmaz əmlakın Dövlət reyestrinə qeydin daxil edilməsinə görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd / ARDYP tərəfindən verilmiş nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi (avtonəqliyyat vasitəsinin Bankda ipotekada olmasına dair qeydlə) .

5) **Zərurət olduqda Bankın tələbi ilə digər sənədlər təqdim olunmalıdır, o cümlədən:**

1. Borcalanın ailə üzvlərinin gəlirləri haqqında arayışlar;
2. Borcalanın ailə vəziyyəti haqqında VVADQ (Vətəndaşlıq Vəziyyəti Aktlarının Dövlət Qeydiyyatı) orqanından arayış;
3. Borcalanın yaşayış yeri üzrə Müivafiq dovlət orqanlarmdan (MiS-dən (Mənzil istismar Sahəsi), yerli icra niimayəndəliklərindən vəs.) aib tərkibi haqqnda arayış (Forma 2).
4. Hüquqi şəxslər üçün - cari tarixə Hüquqi şəxslərin Dovlət Reyestrindən cıxarış.

*Qeyd:*

*Azərbaycan Respublikasmm qüvvədə alan qanunvericiliyi ila digər qayda nəzərdə tutulmayıbsa, gəlirlər haqqında arayışlar verildiyi tarixdən yalnız 30 təqvim günu ərzində Banka təqdim oluna bilər.*